## Macarıstanın Baş naziri Viktor Orbanın Azərbaycana rəsmi səfəri

# Baş nazirlərin görüşündə Azərbaycan-Macarıstan əməkdaşlığının perspektivləri müzakirə olunub





Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə martın 5-də ölkəmizdə rəsmi səfərdə olan Macarıstanın Baş naziri Viktor Orban ilə görüşüb.

Əvvəlcə Azərbaycanın və Macarıstanın Baş nazirlərinin təkbətək görüşü olub.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Baş nazir Artur Rasizadə macarıstanlı həmkarı Viktor Orbanı və başçılıq etdiyi nümayəndə heyətini ölkəmizdə görməkdən məmnunluğunu bildirib. Azərbaycanın və Macarıstanın dost dövlətlər olduğunu vurğulayan Artur Rasizadə ölkəmizin bütün sahələrdə Macarıstan ilə əməkdaşlığa önəm verdiyini söyləyib. Ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu bildirən Azərbaycanın Baş naziri iqtisadi sahədə də əlaqələrin inkişaf etdiyini diqqətə çatdırıb. Azərbaycan və Macarıstan hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın işini yüksək qiymətləndirən Artur Rasizadə artıq konkret nəticələrin əldə olunduğunu vurğulayıb.

Macarıstanın əldə etdiyi uğurların məmnunluq doğurduğunu bildirən Baş nazir Artur Rasizadə Azərbaycanda da siyasi sabitliyin hökm sürdüyünü, iqtisadiyyatın inkişaf etdiyini diqqətə çatdırıb. O, Azərbaycan iqtisadiyyatında enerji sektorunun önəmli yer tutduğunu qeyd edərək bildirib ki, son on il ərzində bu sahədən əldə olunan gəlir hesabına ölkəmizdə böyük infrastruktur yaradılıb, mühüm sosial layihələr həyata keçirilib. Bu, həmçinin Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün bir bazadır.

Görüşdə Macarıstan nümayəndə heyətinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verən Baş nazir deyib ki, təcavüzkar siyasətini davam etdirən Ermənistanın tutduğu qeyri-konstruktiv mövqeyə görə münaqişə indiyədək həll edilməyib. ATƏT-in Minsk qrupunun problemin həlli ilə bağlı vasitəçilik səyləri hələ də heç bir nəticə verməyib. Baş nazir Viktor Orban ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi üçün böyük potensial imkanların olduğunu bildirib. 1990-cı illərin əvvəllərində Azərbaycanın çətin vəziyyətlə üzləşdiyini xatırladığını deyən Macarıstanın Baş naziri bu gün ölkəmizdə sürətli inkişafın şahidi olduğunu vurğulayıb.

Bu gün Azərbaycanın sabit və güclü dövlət olduğunu deyən Baş nazir Viktor Orban bildirib ki, ölkələrimiz arasında münasibətlərin strateji əməkdaşlıq səviyyəsində davam etdirilməsi üçün kifayət qədər imkanlar var. Görüşdə iqtisadi, investisiya yatırımı, nəqliyyat, energetika, humanitar və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Sonra sənədlər imzalanıb.

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Macarıstanın Milli İqtisadiyyat Nazirliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov və Macarıstanın milli iqtisadiyyat naziri Mihali Varqa imzalayıblar.

"Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi arasında Yüksək Texnologiyalar Ekosistemi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto imzalayıblar.

"Macarıstanın Semmelveis Universiteti ilə Azərbaycan Tibb Universiteti arasında Anlaşma Memorandumu"nu Semmelveis Universitetinin rektoru Aqostan Szel və Azərbaycan Tibb Universitetinin rektor əvəzi Sabir Əliyev imzalayıblar.

"Lənkəran Dövlət Universiteti və Kaposvar Universiteti arasında Anlaşma Memorandumu"nu bu ali məktəblərin rektorları Asəf İsgəndərov və Ferents Savai imzalayıblar.

***AZƏRTAC***